

A+ A- Futbol üzrə Azərbaycan milli komandasının üzvləri 9 oktyabr prezident seçkisində qeydiyyatda olduqları məntəqələrdə səs verə bilməyəcəklər.

Hazırda Şimali İrlandiya və Rusiya ilə 2014-cü il dünya çempionatının seçmə qrup matçlarına hazırlaşan millimizin üzvləri evlərinə buraxmayıb.

Əvəzində onlar Bakının Xətai rayonundakı 36-cı seçki dairəsi, 55 saylı orta məktəbdə yerləşən 9-cu məntəqədə birgə səs verəcəklər. Bu məsələ AFFA rəhbərliyinin Mərkəzi Seçki Komissiyasına müraciətindən sonra müsbət həllini tapıb.

Qeyd edək ki, millimiz Şimali İrlandiyanı oktyabrın 11-də, Rusiyanı oktyabrın 15-də sınağa çəkəcək. Hər iki oyunun hazırlıq prosesinə oktyabrın 5-dən təlim-məşq toplantısı ilə start verilib.